# Yazıçı publisist Qərib Mehdi dünyasını dəyişib

***Əməkdar jurnalist, yazıçı, publisist, Gəncə ədəbi mühitinin görkəmli nümayəndəsi Qərib Mehdi haqq dünyasına qovuşub.***



Qərib Mehdi 21 iyun 1936-cı il Qəbələ rayonunun Mirzəbəyli kəndində anadan olub. Kiçik yaşlarında ailəliklə Gəncə şəhərinə köçüblər.

1971-ci ildən H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda çıxan çoxtirajlı ”Yüksəliş” qəzetinin redaktoru vəzifəsində çalışıb. O, 1979-cu ildən Gəncə şəhəri Alimlər Evi nəzdində olan ”İlham” ədəbi birliyinə rəhbərlik edib. 10-dan çox bədii kitabı işıq üzü görüb. Pyesləri Gəncə Dövlət Dram Teatrında səhnələşdirilib.

2009-cu ildə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Əməkdar jurnalist fəxri adına layiq görülüb.

Qərib müəllim həmçinin, ”Türküstan” ailəsinin yaxın dostu, uzun illərdir ədəbi, publisistik əsərləri ilə qəzetimizin daimi yazarlarından idi.

Əziz xatirəsi yaddaşımıza daim yaşayacaq.

***Allah rəhmət eləsin!***

**“Türküstan” qəzeti**